# 525-ci qəzet

13 iyul 2012-ci il, cümə №123 (3679). Qiyməti 20 qəpik

www.525.az


## İqor Popov: “Qarabağ danışıqlarının formatı genişlənə bilər”

*ATƏT-İN MİNSK QRUPUNUN RUSİYALI HƏMSƏDRİ:* “DAĞLIQ QARABAĞ DANIŞIQLAR PROSESİNƏ QOŞULMALIDIR. MƏN BU MƏRHƏLƏNİN NƏ VAXT BAŞLAYACAĞINI BİLMİRƏM, AMMA... ”

ATƏT-in Minsk Qrupunun həmsədrləri Robert Bradtke, İqor Popov və Jak For Azərbaycanın işğal altında olan ərazilərində fəaliyyət göstərən separatçı rejimin rəhbərliyi ilə görüşüb. APA-nın “Novosti-Armenia”ya istinadən yaydığı məlumata görə, Bako Saakyanla görüşdən sonra rusiyalı həmsədr İqor Popov bildirib ki, münaqişəsinin nizamlanmasına dair danışıqların formatı Dağlıq Qarabağın bu prosesə qoşulması ilə genişlənə bilər.



“Həmsədrlər həmişə deyiblər ki, Qarabağ müəyyən mərhələdə danışıqlar prosesinə qoşulmalıdır. Mən bu mərhələnin nə vaxt başlayacağını bilmirəm, amma güman edirəm ki, sülh sazişinin detallarının müzakirəsi başladıqda danışıqlar formatı genişlənə bilər”.

“Azərbaycan tərəfi həmişə Azərbaycan Respublikası Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmaları arasında görüşlərin keçirilməsinə tərəfdar olub. Biz bu icmaların bir-biri ilə ünsiyyət qurmasına və münaqişənin nizamlanmasına öz töhfəsini verməsinə tərəfdarıq”. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev Dağlıq Qarabağın tərəf kimi danışıqlar prosesinə qoşulması ilə bağlı ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovun fikirlərini APA-ya belə şərh edib.

Elman Abdullayev bildirib ki, Azərbaycan etimad mühiti formalaşdırmaq məqsədilə erməni və azərbaycanlı icmaları arasında əlaqələrin qurulmasına dair müxtəlif səviyyələrdə irəli sürülən təşəbbüsləri dəstəkləyir: “Hesab edirik ki, bu kimi görüşlər etimad mühitinin formalaşmasına müsbət təsir göstərə, həmçinin münaqişənin nizamlanmasına töhfə verə bilər”.

## Bakıda Azərbaycan və Tacikistan prezidentlərinin görüşü oldu



Azərbaycanda rəsmi səfərdə olan Tacikistan prezidenti Emoməli Rəhmonun iyulun 12-də rəsmi qarşılanma mərasimi olub. APA-nın məlumatına görə, Tacikistan prezidenti Emoməli Rəhmonu Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb. Azərbaycanın dövlət və hökumət nümayəndələri E. Rəhmona, Tacikistan nümayəndə heyətinin üzvləri İ. Əliyevə təqdim olunub. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan və Tacikistan prezidentlərinin təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla Tacikistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirilib. Dövlətlər arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilib.

Tacikistan prezidentinin Azərbaycana rəsmi səfərinin ölkələr arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb.Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparılıb.

İlham Əliyev və Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanma mərasimi olub. İlk olaraq prezidentlər “Azərbaycan Respublikası Prezidentinin və Tacikistan Respublikası Prezidentinin Birgə Bəyanatı”nı imzalayıblar.

*Ardı 3-cü səh.*

### ATƏT-in baş katibi: “Status-kvo Dağlıq Qarabağ münaqişəsinin həll yolu deyil"

“Status-kvo Dağlıq Qarabağ münaqişəsinin həll yolu deyil”. APA-nın məlumatına görə, bu fikirləri İrəvanda jurnalistlərə verdiyi açıqlamada ATƏT-in baş katibi Lamberto Zannyer deyib. O qeyd edib ki, münaqişə yalnız ATƏT-in Minsk Qrupu çərçivəsində sülh yolu ilə həll oluna bilər. O Bakı və İrəvanda keçirdiyi görüşlərin ana xəttini bu yanaşmanın təşkil etdiyini deyib. Baş katib qoşunların təmas xəttində baş verən insidentlərdən narahatlığını ifadə edib və snayperlərin geri çəkilməsinin, insidentlərin təhqiqatı mexanizmlərinin yaradılmasının vacibliyini vurğulayıb. Zannyer tərəfləri cavab reaksiyası verməkdən çəkinməyə çağırıb, Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyətləri, deputatları, jurnalistləri arasında əlaqələrin qurulmasının vacibliyini önə çəkib. Onun sözlərinə görə, qarşıdurmanın eskalasiyası əvəzinə danışıqların dinamikasını stimullaşdırmaq lazımdır. O münaqişə tərəflərini öz cəmiyyətlərini sülhə hazırlamağa çağırıb.

### Dünyanın ən böyük şirkətlərinin gəlirləri açıqlanıb

AZƏRBAYCANLI MİLYARDER VAHİD ƏLƏKBƏROVUN “LUKOİL” ŞİRKƏTİNİN İLLİK GƏLİRİ 111 MİLYARD DOLLARDIR

Dünyanın ən böyük şirkətlərinin gəlirləri açıqlanıb. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, “Fortune Global 500” 2012-nin siyahısında ilk yeri Hollandiyanın neft və qaz şirkəti “Royal Dutch Shell” tutur. Şirkətin illik gəliri 484 mlrd. ABŞ dolları təşkil edir. İkinci yerdə 452 mlrd. dollar illik gəliri olan “Exxon Mobil”, üçüncü yerdə isə ABŞ-ın “Wal-Mart” şirkəti qərarlaşıb. Sonuncunun illik gəliri 446 mlrd. dollar təşkil edib.

Qonşu Türkiyədən ilk 500-ə 45 mlrd. dollar illik gəlirlə “Koç” Holdinq, Rusiyadan isə 7 şirkət düşüb.

Siyahıda 15-ci yerdə qərarlaşan “Qazprom”un illik gəliri 157 mlrd. ABŞ dolları təşkil edib. İlk “500-lük”də yer alan ikinci rus şirkəti “LUKoil” kompaniyasıdır. Azərbaycanlı milyarder Vahid Ələkbərovun şirkətinin illik gəliri 111 mlrd. dollarıdır. Rusiyanın üçüncü böyük gəlir əldə edən şirkəti isə “Rosneft”dir. İllik 65 mlrd. dollar gəlir əldə edən “Rosneft” siyahıda 137-ci yerdə qərarlaşıb.

Dördüncü böyük rus şirkəti olan TNK-BP 48,9 mlrd. dollar gəliri ilə 192-ci yeri tutub.

İlk 500 siyahısına düşən digər rus şirkətləri isə illik gəlirləri 35,5 mlrd. dollar olan “Sberbank”, 34,5 mlrd. dollar olan “Sistema Grup” və 25,9 mlrd. dollar olan “Surqutneftqaz”dır.

### Hərbçimiz əsgər yoldaşını güllələyib

Azərbaycan ordusunda silahlı insident olub.

APA-nın məlumatına görə, hadisə dünən Şəmkir hərbi birləşməsinin “N” saylı hərbi hissəsində qeydə alınıb. İlkin məlumata görə, Azərbaycan Ordusunun əsgəri Çingiz Bədəlovun tabeliyindəki avtomat silahdan ehtiyatsızlıqdan atəş açılıb və güllə onun əsgər yoldaşı Saleh Valeh oğlu Qorodayevə dəyib. Nəticədə S. Qoradayev aldığı xəsarətdən dünyasını dəyişib.

Hadisə zamanı dünyasını dəyişən S. Qorodayev Balakən, Ç. Bədəlov isə Göyçay rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri, polkovnik Eldar Sabiroğlu faktı təsdiqləyib.

### Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozublar

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskepar və Voskevan, Berd rayonunun Mososqex və İcevan rayonunun Berkaber kəndlərində, işğal olunmuş Ağdam rayonunun Mərzili, Cəbrayıl rayonunun Mehdili, Füzuli rayonunun Aşağı Veysəlli və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

## “Fransa Dağlıq Qarabağın özünü elan etmiş hakimiyyət orqanlarını tanımır”

*FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRİ PASKAL MÖNYE:* “SÜLH HEÇ VAXT XARİCDƏN YERİDİLƏ BİLMƏZ, ÇÜNKİ SÜLH MÜNAQİŞƏDƏ OLAN HƏR İKİ TƏRƏFİN GÜZƏŞTİNİN MEYVƏSİDİR”



**Fransanın Azərbaycandakı səfiri Paskal Mönyenin Fransanın milli bayramı — Bastiliyanın alınması günü münasibətilə APA-ya müsahibə verib. Müsahibəni ixtisarla təqdim edirik.**

***— Fransa ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?***

— Azərbaycanın müstəqilliyinə yenidən qovuşmasından sonra ölkələrimiz arasındakı münasibətlər imtiyazlı xarakterə malik olub: Jak Şirak və Heydər Əliyevi birləşdirən dostluq və qarşılıqlı hörmət zəminində yaradılmış bu münasibətlər Prezident İlham Əliyevin verdiyi təkanla davam etdirilib. Xatırladım ki, İlham Əliyev ilk xarici səfəri üçün məhz Fransanı seçib. Son 20 ildən etibarən müxtəlif dərəcəli — parlamentlərarası, nazirlər və prezidentlər səviyyəsində baş tutmuş səfərlər, bu münasibətləri həm irəliyə apardı, həm də onlara əhəmiyyətli diversifikasiya verdi. Bu münasibətlərin konkret realizasiyası Bakıda Fransız Liseyinin yaradılmasıdır. Bu məktəbin ideyası 2009-cu ilin dekabr ayında prezident Nikola Sarkozi ilə Prezident İlham Əliyevin Parisdə baş tutmuş görüşü zamanı yaranmış və prezident Sarkozinin 7 oktyabr 2011-ci ildə Bakıya səfəri zamanı ölkələr arasında müvafiq saziş imzalanmışdı.

*Ardı 3-cü səh.*




# İlham Əliyev: "Azərbaycan bayrağını Xankəndidə qaldıracağıq"

## "STATUS-KVO"NUN DƏYİŞDİRİLMƏSİ İŞĞAL EDİLMİŞ TORPAQLARDAN ERMƏNİ İŞĞALÇI QÜVVƏLƏRİNİN ÇIXARILMASI DEMƏKDİR"

"Növbəti aylar, illər ərzində bizim xarici siyasətlə bağlı işimiz daha da böyük, əlaqələrimiz daha da geniş olacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimiz ədalətə və beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın ərazi bütövlüyü məsələləri heç vaxt danışıqlar predmeti olmayıb və olmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Məndə buna heç bir şübhə yoxdur". APA-nın məlumatına görə, bunu Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında deyib.

Dövlət başçısı danışıqlar prosesində müəyyən durğunluq olduğunu bildirib: "Baxmayaraq ki, Minsk Qrupuna həmsədrlik edən ölkələrin başçıları yeni bəyanatla çıxış ediblər və "status-kvo"nun qəbuledilməz olduğunu bir daha təsdiq ediblər. Hələ ki, "status-kvo"nu dəyişdirən konkret, real addımlar atılmır. Ancaq bu, qaçılmazdır. "Status-kvo" dəyişdirilməlidir. Həm Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçıları, Avropa İttifaqı Şurasının prezidenti Bakıda olarkən, ATƏT nümayəndələri, digər beynəlxalq təşkilatlar və siyasətçilər "status-kvo"nun qəbuledilməz olduğunu dəfələrlə bəyan edirlər. Bu, çox dəyərli bəyanatdır. "Status-kvo"nun dəyişdirilməsi işğal edilmiş torpaqlardan erməni işğalçı qüvvələrinin çıxarılması deməkdir. Bu işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxdıqca əlbəttə ki, danışıqlar prosesində də müsbət meyllər daha da güclənəcək və bu məsələ tezliklə öz həllini tapacaq".

Prezident deyib ki, bütün siyasi və diplomatik səylərlə yanaşı, Azərbaycan hərbi qüdrətini də artırır, gücləndirir: "Güclü ordu yaratmışıq və yaradırıq. Güclü ordu danışıqlarda bizim mövqeyimizi böyük dərəcədə gücləndirir. Azərbaycanın iqtisadi imkanları genişlənir. Azərbaycan nəinki bölgədə, dünya miqyasında güclü ölkəyə çevrilir. Əlbəttə ki, bizim iqtisadi və maliyyə, eyni zamanda, siyasi resurslarımız məsələnin ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə gətirib çıxaracaq. Bizim həm iqtisadiyyatımız, həm valyuta ehtiyatlarımız, həm də əhalimiz artır. Son məlumata görə, artıq Azərbaycanın əhalisi 9,3 milyon nəfərə çatıb. Ermənistana gəldikdə, ancaq onların rəsmi statistikasına görə ilin birinci beş ayında 80 min nəfər o ölkəni həmişəlik tərk edib. İlin sonuna qədər bu rəqəm təqribən 170, 200 minə çatacaq. Beləliklə, bir neçə ildən sonra ümumiyyətlə, demoqrafik vəziyyət həlledici məqama çevriləcək. Təsadüfi deyil ki, son çıxışlarımda mən bu məsələyə xüsusilə diqqət yetirirəm. Azərbaycanda demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım var. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir. İqtisadiyyatımız, sənaye gücümüz, maliyyə imkanlarımız, imkan verəcək ki, biz indiki səviyyədən iki dəfə çox əhalini işlə təmin edək və bütün şəraiti yaradaq. Əlbəttə ki, bu, olacaq. Bu gün 9,3 milyondur. Bir neçə ildən sonra olacaq 15 milyon, 20 milyon. Yəni, bu proses gedir və gedəcək. Biz indidən müəyyən əlavə tədbirlərin görülməsi ilə bu prosesi daha da stimullaşdırmalıyıq. Ermənistana gəldikdə, bəlkə də Ermənistan rəhbərləri sevinir ki, əhali azalır. Çünki orada nə iş yerləri, nə pul, nə iqtisadiyyat, nə sənaye, nə də heç bir perspektiv var. Əhali nə qədər azalsa, hökumətin üzərinə düşən yük də o qədər azalır. Bu, bir yanaşmadır. Bizim yanaşmamız tam başqadır. Bizim iqtisadiyyatımız, sənaye gücümüz və siyasi iradəmiz diktə edir ki, Azərbaycan əhalisi daha da artmalıdır. Bu, nəinki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli üçün lazımdır — bu məsələni biz həll edəcəyik və Azərbaycan bayrağını Xankəndidə qaldıracağıq — bu ümumiyyətlə gələcək üçün lazımdır. Çünki bu gün dünyada əfsuslar olsun ki, bir çox halda beynəlxalq hüquq normaları işləmir. Beynəlxalq hüquq normalarına məhəl qoyulmur. Güc amili ön plana çıxır. Bu, əslində ötən əsrlər üçün xas olan bir mənzərə idi. Sadəcə olaraq İkinci Dünya müharibəsindən sonra — dünyanın yeni quruluşu, yeni qaydaları tətbiq olunduqdan sonra beynəlxalq hüquq normaları əsas kimi qəbul edildi və bu gün də bu, belədir. Ancaq tendensiyalara və bölgədə, dünyada gedən proseslərə baxdıqda biz görürük ki, bəzi hallarda beynəlxalq hüquq normalarına kobudcasına zidd olan addımlar atılır, güc amili ön plana çıxır. Güclü kimdir, haqlı da odur. Bu, bizim seçimimiz deyil, amma əfsuslar olsun ki, dünyada gedən proseslər bunu göstərir. Güclü olmaq üçün güclü iqtisadiyyat, hərbi sənaye potensialı və böyük əhali lazımdır. Ona görə biz bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq. Bu günə qədər bu proseslər təbii xarakter alırdı. Sadəcə olaraq, ölkə iqtisadiyyatı artdıqca təbii artım da, necə deyərlər, daha da sürətli idi. Biz statistik rəqəmlərdə bunu görürük. Son illər ərzində doğulan uşaqların sayı daha da çoxdur, nəinki 10-15 il bundan əvvəl. Yəni, bu, iqtisadi və sosial amillərlə birbaşa bağlı olan məsələdir. Ancaq yenə də deyirəm, biz bu məsələyə yeni prizmadan yanaşmalıyıq. Azərbaycan əhalisi daha da sürətlə artmalıdır".

Azərbaycanda keçirilən "Eurovision" mahnı müsabiqəsi ilə bağlı prezident bildirib ki, müsabiqə ölkəni dünyaya olduğu kimi təqdim etməyə imkan yaradıb. "Ancaq sözün düzü, keçən il bizim istedadlı gənc müğənnilərimiz Almaniyada keçirilən müsabiqədə qalib gəldikdə heç təsəvvür edə bilməzdik ki, bu müsabiqə bu qədər siyasiləşdiriləcək. Çünki bu vaxta qədər bu müsabiqə sadəcə olaraq mahnı yarışması idi, bunun heç bir siyasi tərəfi olmamışdı və ola da bilməz. Ancaq əfsuslar olsun ki, Azərbaycana gəldikdə bunu siyasiləşdirmək istəyən qüvvələr tapıldı və deyə bilərəm ki, Azərbaycana qarşı böyük və çirkin kampaniya başlayıb".

Prezident qeyd edib ki, Bakıda keçirilən "Eurovision" müsabiqəsi təşkilati nöqteyi-nəzərdən ən gözəl müsabiqə olub. Azərbaycana gələn minlərlə xarici qonaqlar təşkilati məsələləri yüksək qiymətləndirib. Bu baxımdan Bakıda keçirilmiş "Eurovision" müsabiqəsi başqa şəhərlər üçün nümunə ola bilər. "Ancaq bununla bərabər, biz gözlənilməz kampaniya ilə də üzləşdik. "Eurovision"un tarixində heç vaxt siyasi məqamlar olmayıb. Burada antiazərbaycan qüvvələrin birləşməsi prosesi sürətlə gedib. İlk növbədə, erməni lobbisi və bu məsələ ilə bağlı mən əvvəllər də demişəm, bu gün də deyirəm, "Eurovision" müsabiqəsi bir daha mənim sözlərimi təsdiqləyir ki, bizim üçün, Azərbaycan xalqı, Azərbaycan dövləti üçün bir nömrəli düşmən dünya erməni lobbisidir. Onlar gündəlik fəaliyyətdə Azərbaycanı ləkələmək, qaralamaq, şayiə, böhtan yaymaq üçün çalışırlar və bütün maliyyə-siyasi qüvvələrini səfərbər edirlər ki, təki Azərbaycana zərbə vursunlar. Erməni lobbisi, ondan sonra digər qurumlar, digər dairələr, Avropada islamofobiya xəstəliyinə düçar olmuş bəzi dairələr bu kampaniyaya qoşuldu. Bunu da mən təəssüf hissi ilə deyə bilərəm. Belə fikirlər səsləndi ki, müsəlman ölkəsində Avropa müsabiqəsi keçirilə bilməz. Bu, əlbəttə ki, çox məyusedici bəyanatlardır. Düzdür, belə qüvvələrin Qərb dünyasında, siyasi müstəvidə çəkisi çox aşağı səviyyədədir. Ancaq bu qüvvələr, belə partiyalar, bu fikirdə olan siyasətçilər əfsuslar olsun ki, var.

Əgər belə təsnifat aparsaq deyə bilərəm ki, üçüncü qüvvələr sadəcə olaraq Azərbaycanın uğurlu inkişafını qəbul edə bilməyən, Azərbaycanın böhranlı illərdə bu qədər inkişaf etdiyini həzm edə bilməyən və sadəcə olaraq uğurlarımıza qısqanan, paxıllıq edən dairələrdir".

İlham Əliyev bildirib ki, Azərbaycanın inkişafını qəbul etməyən qüvvələrə qoşulmuş yerli, antimilli qüvvələr, özünü müxalifət adlandıran, əslində, uzun illər antiazərbaycan mövqeyində dayanan və Azərbaycana qarşı kampaniya aparan qüvvələr var. "Mən onlara qüvvə demərəm, elementlər, ünsürlər desəm daha dəqiq olar, — bax, bunların simbiozu birləşərək Azərbaycana qarşı çox çirkin, yalan və böhtan üzərində kampaniya aparmağa başlamışlar. Həm xarici, həm daxili mətbuatda qəsdən müəyyən təxribatların baş verməsini onlar təşkil ediblər. Onlar üçün, yəni xüsusilə daxildəki bu elementlər üçün siyasi həyatda bir prinsip var ki, Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün bir o qədər yaxşıdır. Yəni, Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yanlış məlumat yaymaq, erməni lobbisi ilə birləşmək — bütün bunlar bizim gözümüzün qabağında baş vermiş hadisələr idi. Əlbəttə, Azərbaycan xalqı bir daha açıq-aydın gördü ki, kim kimdir. Demək olar ki, bütün Azərbaycan xalqı bu bir ay ərzində sevinc içində idi. Bu qədər qonaq gəlir, hər kəs istəyirdi ki, öz ölkəsini təqdim etsin, tanıtdırsın, gözəl yerləri göstərsin. Antimilli qüvvələr isə xarici qonaqlara deyirdilər ki, siz baxmayın ki, bura belə gözəldir, gəlin biz sizi kənara aparaq, siz görərsiniz ki, bura necə pisdir. Yəni, adamın ağlına gəlmir ki, bu dərəcədə antimilli duyğularla yaşayan insanlar burada ümumiyyətlə özləri üçün necə yer tapa bilirlər?! Yəni, onlar üçün hər gün dərddir, hər gün faciədir. Bir yenilik görəndə üzülürlər, bir inkişaf görəndə yasa batırlar. Bunlar doğrudan da, çox ağır bir psixoloji durumda olan insanlardır, özü də uzun illər ərzində. Çünki Azərbaycanın inkişafı bu günün işi deyil. Bu, ardıcıllıqla gedən bir inkişafdır".

Prezident xatırladıb ki, "Eurovision"a qədər 20-ci Sahədə ayrılan yerdə üç mitinq keçirilb. "Mən bir daha demək istəyirəm ki, onlar üçün ən məqbul yer 20-ci Sahədir və özləri də öz xoşu ilə 20-ci Sahədə mitinqləri çox sakit şəkildə keçirdilər. Heç kim onlara dəymədi. Amma görəndə ki, hər dəfə, — yəni üç dəfə belə yığıncaqlar keçirildi, — oraya gələn insanların sayı getdikcə azalır, yeni taktikaya əl atdılar. Şəhərin mərkəzində qanunsuz piket, ya mitinq keçirməklə xarici mətbuatın diqqətini cəlb etməyə cəhd etdilər. Bu, sırf təxribat xarakteri daşıyan bir addım idi. Yaxşı, "Eurovision" artıq qurtardı. Haradadır o piketlər, haradadır o mitinqlər?! Hacıbala Abutalıbov onlara müraciət etsin və onları 20-ci Sahəyə dəvət etsin. "Eurovision" növbəti dəfə nə vaxt Azərbaycanda keçiriləcək, biz bilmirik. Yəni, biz o qədər gözləyə bilmərik.

Bu, nə qədər gülməli olsa da, bir o qədər də acınacaqlıdır. Çünki doğrudan da öz xalqına, öz millətinə, öz dövlətinə bu qədər mənfi münasibət bəsləyən insanlara bir ad vermək olar — milli satqınlar, xəyanətkarlar və antimilli qüvvələr. Ancaq bütün bu cəhdlərə və bizə qarşı bu çirkin kampaniyaya baxmayaraq, yenə də biz qalib gəldik — Azərbaycan dövləti, Azərbaycan xalqı qalib gəlib".

# İran Azərbaycana barış əli uzadır

Məlum olduğu kimi, son zamanlar Azərbaycanla İran münasibətləri heç də ürəkaçan səviyyədə deyil. Və Azərbaycanla İran arasında gərgin olan münasibətlər fonunda son günlər bu ölkənin rəsmilərinin ölkəmizə səfəri iki dövlət arasında münasibətlərin istiləşməsi kimi xarakterizə edilir. Bu günlərdə İran İslam Respublikasının təhsil naziri Həmidrza Hacıbabayinin Azərbaycana səfərə gəlib. Səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşən təhsil naziri Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirakla əlaqədar İran dövlət başçısı Mahmud Əhmədinejad tərəfindən ünvanlanmış dəvət məktubunu ona təqdim edib. Məhz bu məqamı siyasi şərhçilərin iki ölkə arasındakı münasibətlərin bundan sonra müsbət formada irəliləyəcəyini söyləməsinə əsas verir.

Poiltoloqların fikrincə, İranın təhsil nazirinin M.Əhmədinecatın dəvət məktubunu İ.Əliyevə təqdim etməsi rəsmi Tehranın Bakıya barışıq əlini uzatması anlamını daşıyır. Deməli İran artıq Azərbaycanla bağlı siyasətində buraxdığı səhvləri görür və onları düzəltməyə səy göstərir.

İranın ölkəmizə barışıq əlini uzatması başadüşülən haldır. Çünki iki ölkə arasındakı münasibətlərin soyuqlaşması və qarşılıqlı ittihamların güclənməsinin əsas səbəbkarı məhz elə İran tərəfi idi.

Gərginliyin ilk vaxtlarında İran müəyyən dini dairələrin təhriki ilə Azərbaycana qarşı qeyri-adekvat siyasət həyata keçirərək, aqressiv ritorikaya yol verdi. Həmçinin iki dövlət arasında mövcud razılaşmalara və Azərbaycanın onlara sadiqliyini nümayiş etdirməsinə baxmayaraq, ciddi təzyiqlərə və sanksiyalara məruz qalan, həmçinin hərbi müdaxilə təhlükəsi ilə qarşı-qarşıya qalan İran ölkəmizin Qərbin kampaniyasına qoşulacağından çəkinərək Azərbaycana qarşı kəskin bəyanatlar səsləndirirdi. Hətta vəziyyət o yerə çatmışdı ki, İranda antiazərbaycan kampaniyaları, aksiyaları təşkil olunaraq, Azərbaycanda dini ekstremizmin gücləndirilməsi istiqamətində işlər görülürdü, habelə terrora dəstək göstərilərək, düşmən ölkəyə — Ermənistana doğru qıcıqlandırıcı reveranslar edilirdi.

Rəsmi Tehran Azərbaycanın Qərbə və İsrailə öz ərazisindən istifadə etmək üçün imkan yarada biləcəyini də düşünürdü. Bununla yanaşı Azərbaycanı İranla qarşı-qarşıya qoymağa çalışan Qərb dairələri müxtəlif yollara əl ataraq, məqsədləri üçün müxtəlif vasitələrdən belə istifadə etdilər. "Foreign Policy", "The Times" nəşrlərində dərc olunmuş dezinformasiya xararakterli materiallar məhz bu məqsədlərə xidmət edirdi.

Sadalanan bütün bu məqamlar tarixən dost ölkə olan İran-Azərbaycan münasibətlərinin gərginləşməsinin əsas səbəbləri sırasında idi. Sevindirici məqamdır ki, müəyyən müddət ərzində keçdikdən sonra İran Azərbaycanın müstəqil dövlət olduğunu, öz müstəqil siyasətini yürütdüyünü və ölkəmizin Qərbin antiiran kampaniyasına qoşulmayacağını anladı. İranın həm dini, həm də rəsmi hakimiyyət dairələri bir daha əmin oldular ki, rəsmi Bakının bəyanatları ilə həyata keçirdiyi siyasət bir-biri ilə tam uyğunluq təşkil edir. Əgər bütün bunları, eləcə də eyni adət-ənənəyə malik xalqlar, möhkəm dostluq əlaqələrini nəzərə alsaq, Bakının İranın bu cəhdlərini müsbət qarşılayacağını və münasibətlərin bundan sonra yüksələn xətt üzrə inkişaf edəcəyini söyləmək olar.

Millət vəkili, politoloq Rasim Musabəyov bu məqamın ölkələr arasındakı münasibətlərin düzələcəyinə inanmadığını düşünür. Onun sözlərinə görə, İran rəhbərləri iki ölkə arasındakı gərginliyin onlara bir xeyir verməyəcəyini anlayıblar: "Hesab edirəm ki, İran rəhbərliyi anladı ki, iki ölkə arasındakı gərginliyin artması onlara heç bir xeyir verməyəcək. Belə olan halda münasibətləri qaydaya salmaq, münasibətlərin daha da gərginləşməsinin qarşısını almaq vacib idi. Bu həm İranın, həm də Azərbaycanın dövlət maraqlarına cavab verir. Əslində bu dəvət nəticəsində olacaq səfər münasibətlərə müəyyən dərəcədə aydınlıq gətirə bilər".

Münasibətlərin bundan sonra daha da gərginləşəcəyinə inanmadığını qeyd edən millət vəkili bu dəvətlə bütün məsələlərin gündəlikdən çıxacağını düşünmədiyini söyləyib. Onun fikrincə, münasibətlər müəyyən çərçivəyə salına bilər.

**Aqil LƏTİFOV**

# DSMF-in sədri Səlim Müslümov türkiyəli həmkarı Faruk Çeliklə görüşüb

Dünən Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov ölkəmizdə səfərdə olan Türkiyənin əmək və sosial müdafiə naziri Faruk Çelikin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Fonddan verilən məlumata görə, qonaqları salamlayan S.Müslümov Azərbaycanın qardaş Türkiyə ilə bütün istiqamətlərdə, o cümlədən sosial sahədə əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxladığını, Azərbaycanla Türkiyə arasında sosial sahədə qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsində bu səfərin mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Fondun sədri "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin 1998-ci ildə imzalandığını xatırladıb. İki ölkə arasında sosial müdafiə sahəsində əməkdaşlığı nəzərdə tutan həmin Sazişə uyğun olaraq Türkiyə və Azərbaycan dövlətlərinin vətəndaşlarının həmin ölkələrin ərazisində göstərdikləri əmək fəaliyyəti dövründə qazanmış olduqları əmək pensiyası hüquqları qarşılıqlı olaraq tanınır və pensiya təyinatında nəzərə alınır. S.Müslümov nəzərə çatdırıb ki, Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilər arasında qardaş ölkənin vətəndaşları digər ölkələrlə müqayisədə çoxdur: "Ümumilikdə Fondun fərdi uçot sistemində 92 ölkənin vətəndaşları qeydiyyatdadır və onların 58,2 faizi Türkiyə vətəndaşlarıdır".

Öz növbəsində F.Çelik dost və qardaş Azərbaycanda səfərdə olmağından məmnunluğunu bildirib. O, iki ölkə arasında sosial sığorta və pensiya təminatı sahəsində də qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsinin vacib olduğunu qeyd edib. Türkiyəli nazir Azərbaycanın sığorta-pensiya sistemində aparılan islahatları, əldə olunun nəaliyyətləri yüksək dəyərləndirdiyini vurğulayıb.

Görüşdə ötən dövr ərzində iki ölkənin sığorta-pensiya sistemlərində baş verən dəyişikliklər nəzərdən keçirilib və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin bəzi müddəalarına yenidən baxılması istiqamətində müzakirələr aparılıb.

Türkiyənin nümayəndə heyəti Fondda yaradılan müasir avtomatlaşdırılmış idarəetmə sistemləri, Azərbaycanın sığorta-pensiya sistemindəki islahatlarla da yaxından tanış olub.

**BƏXTİYAR**

## "Azərikimya"nın mühəndislərinə beynəlxalq sertifikatlar verilib

"Azərikimya" İstehsalat Birliyinin bir qrup mütəxəssisi ARDNŞ-in Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin təşəbbüsü ilə İdarənin Kadr hazırlığının təşkili Mərkəzində ilk dəfə olaraq təşkil olunmuş qaynaq işlərinə nəzarət üzrə "Vizual müayinə İnspektoru" kursunda iştirak edib. "Azərikimya"dan verilən məlumata görə, kurslar İsveçrənin tanınmış "SGS" firmasının Azərbaycandakı nümayəndəsi "SGS-Azeri LTD" şirkətinin beynəlxalq sertifikata malik mütəxəssisləri tərəfindən EN 497 beynəlxalq standartının tələb və şərtlərinə uyğun keçirilib. ARDNŞ-nin müxtəlif struktur bölmələrindən 26 nəfərin cəlb olunduğu kursu müvəffəqiyyətlə başa vuran Birliyin Təmir-tikinti İdarəsinin mühəndisləri Aqil Rəsulov, Ağadədə Ağayev və Adil İbişova SGS şirkətinin xüsusi beynəlxalq sertifikatları təqdim olunub.

Təqdimat mərasimində "Azərikimya" İB-nin, Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin, həmçinin "SGS-Azeri LTD" şirkətinin nümayəndələri kursu uğurla başa vuran əməkdaşları təbrik edərək, onlara işlərində müvəffəqiyyətlər arzulayıblar.

Kursların təşkil olunmasında əsas məqsəd qaynaq tikişlərinin rentgen, ultrasəs, maqnit tozu və s. üsullarla yoxlanılmasını təşkil etməkdən ibarətdir. Sertifikata layiq görülmüş mühəndislər qaynaq işləri həyata keçirilən sahələrdə qaynaq tikişlərinin yüksək keyfiyyətlə aparılmasına nəzarət edəcək.

**BƏXTİYAR**

# Misir Mərdanov "Konsolideyted Kontraktors" Beynəlxalq Şirkətinin nümayəndələri ilə görüşüb



Dünən təhsil naziri Misir Mərdanovun "Konsolideyted Kontraktors" Beynəlxalq Şirkətinin (CCC) Avrasiya bölməsinin rəhbəri Juan Bulos və şirkətin Azərbaycan nümayəndəliyinin təhlükəsizlik və daxili məsələlər üzrə meneceri Hamlet Süleymanovla görüşü olub.

Qonağı səmimi salamlayan təhsil naziri son illər Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində atılan uğurlu addımlardan söz açıb və hazırda müvafiq işlərin davam etdirildiyini bildirib. Nazir bir sıra ölkələrlə peşə təhsili sahəsi üzrə birgə layihələrin həyata keçirildiyindən və qarşılıqlı əməkdaşlığın yaradıldığından bəhs edib. M.Mərdanov ilk-peşə ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və əsaslı təmiri üzrə görülən işləri də qonağın diqqətinə çatdırıb. "Konsolideyted Kontraktors" Beynəlxalq Şirkətinin Avrasiya bölməsinin rəhbəri Juan Bulos qeyd edib ki, tikinti sahəsində dünyanın 18-ci ən böyük şirkətindən biri olan bu qurum əsas fəaliyyət istiqaməti ilə yanaşı, sosial sahəyə də xüsusi diqqət yetirir. Juan Bulos təmsil olunduğu şirkətin dünyanın bir neçə ölkəsində təşkil etdiyi peşə təlimi mərkəzləri barədə məlumat verərək Azərbaycanda da belə bir mərkəz yaradılması təklifi ilə çıxış edib. Ölkəmizdə fəaliyyət göstərən bir neçə ilk-peşə ixtisas təhsili müəssisəsi ilə tanış olduqlarını nəzərə çatdıran qonaq 16 nömrəli Bakı Peşə Liseyinin emalatxanasında qaynaqçı ixtisası üzrə müasir tipli Peşə Tədris Resurs Mərkəzinin yaradılmasını məqsədəuyğun hesab etdiklərini açıqlayıb. Təhsil naziri qonağın irəli sürdüyü təklifi yüksək dəyərləndirdiyini qeyd edib. Nazir yeni mərkəzin açılması, layihənin səmərəli həyata keçirilməsi ilə bağlı müvafiq dəstəyin göstəriləcəyini bildirib. Görüşdə o da vurğulanıb ki, Təhsil Nazirliyi ilə birgə həyata keçiriləcək layihə çərçivəsində 16 nömrəli Bakı Peşə Liseyinin emalatxanasının müasir səviyyədə əsaslı təmir edilməsi və müvafiq şirkətin vəsaiti hesabına təhsil müəssisəsinin qaynaq aparatları, təlim vəsaitləri ilə təmin olunması, habelə digər ölkələrdən mütəxəssislər dəvət edilərək təlimlər keçirilməsi nəzərdə tutulur. Qeyd olunub ki, təlim keçmiş şəxslərə dövlət təhsil sənədi ilə yanaşı, şirkətin beynəlxalq səviyyədə tanınan sertifikatı da təqdim olunacaq və məzunlar ölkəmizdə, eləcə də xaricdə asanlıqla iş tapmaq imkanı əldə edəcəklər. Eyni zamanda məzunların bir qismi şirkətin respublikamızda və qonşu ölkələrdə həyata keçirdiyi layihələrə də cəlb ediləcəklər. Məlumat üçün qeyd edək ki, "Konsolideyted Kontraktors" Beynəlxalq Şirkəti Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz qaz kəmərlərinin tikintisində iştirak edib.

**S.QARAYEVA**

# Əli Həsənov YAP Gənclər Birliyinin "Yay məktəbi"ndə gənclərlə görüşüb



Dünəndən etibarən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin "Yay məktəbi" layihəsinin ikinci həftəsi öz işinə başlayıb. Birliyin mətbuat xidmətindən verilən məlumata görə, layihə çərçivəsində Oğuz rayonuna səfər edən partiyanın fəal gəncləri bir sıra tədbirlərdə iştiraka start veriblər. Öncə ölkəmizin müxtəlif regionlarından tədbirə qatılan gənc siyasətçilərə ölkəmiz, səfər etdikləri rayon və hakim Yeni Azərbaycan Partiyasının keçirdiyi "Yay məktəbi"nin mahiyyəti haqqında ətraflı məlumat verilib, müasir Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan danışılıb.

İlk tanışlıqdan sonra gənclərin istirahət mərkəzində Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla gənclərin görüşü keçirilib. Görüşdə ilk olaraq çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov professor Əli Həsənova "Yay məktəbi" layihəsində iştirak etdiyi üçün təşkilat adından dərin minnətdarlığını bildirib: "Artıq Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Yay məktəbi" layihəsinin ikinci mərhələsinə start verilib. Layihə çərçivəsində keçirilən bir sıra görüşlərdə gənclər üçün maraqlı olan məsələlər ətrafında müzakirələr aparılır, onları maraqlandıran suallar cavablandırılır. Prezident Adminstrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun öz dəyərli vaxtını ayırıb bizlərlə görüşə gəlməsi hamımız üçün ayrı-ayrılıqda qürurvericidir. Mən xüsusilə qeyd etmək istərdim ki, gənclər bu görüş çərçivəsində çox önəmli məsləhətlər alacaqlar. Gənclərimizin ictimai-siyasi həyatda fəaliyyət prinsiplərinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsində yaxından kömək edən bu layihədə iştirak etdiyi üçün YAP gəncləri adından Həsənova dərin təşəkkürümüzü bildiririk".

Daha sonra çıxış edən Əli Həsənov gəncləri salamlayaraq "Yay məktəbi"ndə iştirakından məmnunluğunu bildirib. O, ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətini və liderliyə gedən yolda qarşılaşdığı çətinlikləri o zamanın şahidi kimi təsvir edib: "Bu gün "Liderliyə gedən yol" dediyimiz zaman ilk olaraq ağlımıza ulu öndərimizin siyasi fəaliyyəti gəlir. Ümummilli liderin siyasi fəaliyyəti və keşməkeşli liderlik yolu hər birimiz üçün örnəkdir. Mən o zamanlar sizin yaşda bir gənc idim. Biz hamımız Heydər Əliyevin hakimiyyətə gəlməsini istəyirdik. Çünki anlayırdıq ki, bu xalqın tək xilaskarı Heydər Əliyevdir. O dövrdə gözlərini hakimiyyət hərisliyi örtmüş bəzi "liderlər" xalqın gələcəyini düşünmürdülər. Lakin böyük əzablardan sonra ulu öndər Heydər Əliyev hakimiyyətə gəlişi ilə xalqımızın gələcəyini təyin edən addımlar atdı. O, öz liderlik bacarığı ilə xalqımıza müstəqillik gətirdi, insanlara azadlıq düşüncələrini aşıladı. Bu gün Azərbaycanda bünövrəsi ulu öndərimiz tərəfindən qoyulan siyasət uğurla davam etdirilir. Bu gün ölkəmizdə gənclərimizin gələcəyi, təminatı və ictimai-siyasi proseslərdə yaxından iştirakı üçün bütün şərait yaradılıb. Bir sözlə, Azərbaycanda gənclər siyasəti çox uğurla həyata keçirilir. Gənclərimiz də bundan kifayət qədər yararlanırlar. Lakin biz gənclərimizin təfəkkürlərinin daha da inkişaf etməsini, onların parlaq gələcək naminə daha da uğurlu addımlar atmasını istəyir və buna çalışırıq".

Daha sonra YAP fəallarını maraqlandıran suallara aydınlıq gətirilib. İpoteka kreditləri, diaspor təşkilatlarının fəaliyyəti, məşğulluq məsələləri, beynəlxalq arenada baş verən hadisələrə münasibət, sosial məsələlər və digər mövzuları əhatə edən suallardan sonra isə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına dair gənclərin təklifləri səsləndirilib.

**S.QARAYEVA**

# “Fransa Dağlıq Qarabağın özünü elan etmiş hakimiyyət orqanlarını tanımır”

## *FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRİ PASKAL MÖNYE:*

## “SÜLH HEÇ VAXT XARİCDƏN YERİDİLƏ BİLMƏZ, ÇÜNKİ SÜLH MÜNAQİŞƏDƏ OLAN HƏR İKİ TƏRƏFİN GÜZƏŞTİNİN MEYVƏSİDİR”

***(Əvvəli 1-ci səh.)***

Bu lisey ölkələrimiz arasında artıq böyük önəmə malik universitetlərarası əməkdaşlıqdan daha irəliyə gedir və Fransa şirkətlərinin Azərbaycanda inkişafına dəstək olmaqla, həm də ölkənin elitasının formalaşmasında rol oynayır. Fransa həmçinin öz təcrübəsini digər sahələrdə də bölüşmək istəyir. Bunlar mülki mühafizə, böhranın idarə edilməsi, qadınların və uşaqların hüquqlarının müdafiəsidir. İqtisadi sahədə ikitərəfli münasibətlər əhəmiyyətli dərəcədə inkişaf edib. Belə ki, Azərbaycanın xarici ticarət statistikasının rəqəmlərinə əsasən 2011-ci ildə 4.645 milyon dollar ilə Fransa Azərbaycanın ikinci dərəcəli tərəfdaşına çevrilib. Fransa artıq neft məhsullarının İtaliyadan sonra ikinci alıcısına çevrilib. Əlbəttə, bizim satışlarımız qat-qat aşağıdır və 608 milyon dollar səviyyəsindədir. Bu sahə də irəliyə getməkdə və 6,2 faiz dinamikası ilə inkişaf etməkdədir. Bizim şirkətlərimiz yüksək texnologiyalar sahəsində yaxşı mövqe tutublar və iqtisadiyyatının inkişafında Azərbaycana dəstək olurlar. Azərbaycan şirkəti AZAL aviaparkını “Airbus” təyyarələri ilə və qısa məsafələr üçün nəzərdə tutulmuş ATR-lərlə tamamlayıb. “Eurocopter” isə “Silkway”i təmin edir. “Thales” şirkətinin radarları ölkənin mülki təhlükəsizliyinə töhfə verir. “Arienespace” Qvineyadakı Kuru kosmodromundan Azərbaycanın birinci peyki “Azsat”ı 2013-cü ilin əvvəlində fəzaya göndərəcək. Bundan əlavə, Fransa həm də Azərbaycana gözəl həyat və incə zövq məhsulları gətirməkdən məmnundur.

***— Fransanın Azərbaycandakı yeni səfiri kimi əsas prioritetləriniz nədən ibarətdir? Hansı sahələri daha çox inkişaf etdirməyi planlaşdırırsınız?***

— Üstünlüyü üç sahəyə verərdim: birincisi, siyasi dialoqu gücləndirmək. Sizə məlum olduğu kimi, Fransada yeni hökumət formalaşıb. İki ölkənin siyasi qərar verənlərinin bizim əməkdaşlığımıza impuls vermək və böyük beynəlxalq məsələlərə aid fikir mübadiləsi aparmaq məqsədilə görüşmələri vacibdir. Fransa Əfqanıstan və Suriya kimi məsələlərə verdiyi töhfələrə görə Azərbaycanı dəfələrlə alqışlayıb. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması Azərbaycanı planetdəki problemlər haqqında apardığımız debatlarda layiqli tərəfdaşa çevirib. Bundan əlavə, Fransa Minsk Qrupunun həmsədri qismində Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi çərçivəsində öz rolunu tam şəkildə yerinə yetirmək niyyətindədir. Bu kontekstdə sevinirəm ki, iki ölkənin xarici işlər nazirləri yaxın vaxtlarda görüşə biləcəklər. Fərdi azadlıqlara və insan hüquqlarına hörmətlə bağlı məsələlərə gəldikdə, sizə məlum olduğu kimi, Fransa bizim həmvətənlərimizin genlərində dərindən möhkəmlənmiş və bizim respublika cəmiyyətini yaratmış bu fundamental dəyərlərə çox bağlıdır. Fransa siyasi islahatlar və demokratiya yolunda Azərbaycan hökumətini və xalqını iddiasız, lakin empatiya və diqqətlə müşayiət etməyi arzu edir. Bununla bağlı biz Azərbaycan rəhbərliyi tərəfindən son vaxtlar verilmiş müsbət qərarları alqışlayırıq (2011-ci il 2 aprel nümayişi iştirakçılarından 9-nun azad edilməsi; vətəndaş cəmiyyəti və müxalifətlə dialoq forumunun təsis edilməsi; müxalifət və vətəndaş cəmiyyəti ilə siyasi debatlar aparan “Çarpaz Baxış” televiziya proqramı layihəsi) və biz, avropalı tərəfdaşlarımız kimi, Azərbaycanda ictimai azadlıqlara hörmətə yenə də diqqət göstərəcəyik. Bu, regionda mühüm iqtisadi və siyasi rolu olan bu ölkəyə edilən etibardan irəli gəlir, mən buna əminəm.

İkincisi, iqtisadi mübadilələrimizi və əməkdaşlığımızı inkişaf etdirmək. Fransanın böyük şirkətləri karbohidrogen, nəqliyyat, kosmos, ekologiya sahələrində artıq Azərbaycanda fəaliyyət göstərirlər. Parisdəki həmkarımla birlikdə biz digər sahələrdə də — o cümlədən, kənd təsərrüfatı, şəhər inkişafı, mülki təhlükəsizlik sahələrində də əməkdaşlığı gücləndirməyi nəzərdə tutmuşuq.

2013-cü ildə mən mülki təhlükəsizliyə (o cümlədən, təbii fəlakətlə bağlı böhranların idarə olunması konsepsiyası), dənizdə təhlükəsizliyə (çirklənməyə qarşı mübarizə, gizli immiqrasiya, qanunsuz daşınmalar, narkotiklər, insan alveri) və böhranlı infrastrukturların mühafizəsinə həsr edilmiş iki seminar təşkil etmək fikrindəyəm.

Nəhayət, fransız və Azərbaycan kiçik və orta müəssisələri arasında əməkdaşlığı gücləndirmək üçün bu yaxınlarda Parisdə yaradıldığı kimi, imkan daxilində bu payızdan etibarən Bakıda Fransa-Azərbaycan Ticarət Palatasının bürosunu yaratmaq niyyətindəyəm.

Üçüncüsü, mədəni əlaqələrimizi inkişaf etdirmək. Bir nömrəli üstünlük liseyin tikintisidir. Bu, hər iki ölkə rəhbərliyinin böyük əhəmiyyət verdiyi məsələdir. Mən həmçinin fransız dilinin tədrisinin gücləndirilməsi üsullarını konkret olaraq Azərbaycan universitetləri və böyük məktəbləri ilə araşdırıb öyrənmək niyyətindəyəm. İyul ayında mən fransız dilini tədris edən azərbaycanlı müəllimlərin illik seminarının keçiriləcəyi Qəbələyə gedəcəyəm. Nəhayət, Fransa və Azərbaycan şəhərləri arasında əlaqələrin gücləndirilməsi məqsədilə əyalətlərarası əməkdaşlığa xüsusi yer verəcəyəm. Bu fəaliyyət Azərbaycanın Parisdəki səfirliyi ilə koordinasiya ediləcək və mən Azərbaycan səfirliyinin bu sahədəki çox gözəl işini alqışlamaq istəyirəm.

***— May ayında bir qrup fransız senator Azərbaycanın işğal altında olan ərazilərinə səfər edib. Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi Fransanın Xarici İşlər Nazirliyinə etiraz məktubu göndərdi və həmin şəxslərin adını “qara siyahı”ya saldı. Bunu necə şərh edərdiniz ?***

— Senatorlar və deputatlar xalqın seçilmiş nümayəndələridir, Fransa Konstitusiyasında qeyd olunduğu kimi, Fransada hakimiyyət bölgüsü mövcuddur və onlar bu səlahiyyət çərçivəsində öz hərəkətlərində, mövqelərində və səfərlərində sərbəstdirlər. Heç bir halda, çoxsaylı olduqda belə, onlar Fransanın rəsmi mövqeyini ifadə etmək səlahiyyətinə malik deyillər, çünki bu səlahiyyət yalnız Fransa hökumətinə aiddir. Fransa, digər ölkələr kimi Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bu isə o deməkdir ki, Dağlıq Qarabağın özünü elan etmiş hakimiyyət orqanlarını tanımır. Fransanın bu mövqeyi ölkənizi Ermənistanla üz-üzə qoyan Dağlıq-Qarabağ müharibəsindən bu günədək heç vaxt dəyişməyib.

***— 18 iyunda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdə görüşü keçirildi. Münaqişənin həll olunması üçün Minsk Qrupunun həmsədri kimi Fransa hansı addımları atır?***

— Minsk Qrupunun həmsədri kimi Fransa atəşkəsdən etibarən Azərbaycanla Ermənistan arasında vasitəçilik rolunu fəallıqla yerinə yetirir. Bir tərəfdən o, xarici işlər nazirləri və prezidentlər səviyyəsində, eyni zamanda da vətəndaş cəmiyyətləri vasitəsilə ölkələr arasındakı ünsiyyəti irəli aparmaq üçün səy göstərir. Bu, uzunmüddətli və çətin işdir, lakin Fransa bu işi qəti və davamlı şəkildə irəli aparmağa davam edir və 18 iyunda xarici işlər nazirlərinin Parisdəki növbəti görüşü bunu bir daha göstərdi. Bir neçə aylıq fasilədən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin iştirakı ilə ilk dəfə baş tutmuş bu görüş, Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin 2012-ci il 23 yanvar Soçi Bəyannaməsini nəzərə alaraq, Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyiş olmaqla müzakirələr aparmağa imkan verdi. Biz həmçinin Parisdə humanitar əlaqələrin inkişafından, atəşkəsin pozulmasının aradan qaldırılması mexanizminin yaradılmasından və tarixi və mədəni ərazilərin qorunmasından da danışdıq. Həmsədrlər həmçinin son günlərdə cəbhə xəttində baş vermiş insidentlərlə bağlı dərin narahatlıqlarını bildirdilər və 1994-cü ildə imzalanmış atəşkəs haqqındakı müqaviləyə riayət edilməsinin vacibliyini vurğuladılar.

Digər tərəfdən, Fransa, Rusiya və Amerika ilə birlikdə Dağlıq Qarabağ münaqişəsinin tam həlli üçün də iş aparır. Yeri gəlmişkən, o, bu gün hər iki münaqişə tərəfinin danışıqlar üçün baza sənədi kimi qəbul etdiyi Madrid prinsiplərinin tərtib edilməsində əhəmiyyətli rol oynayıb. Lakin sadaladıqlarıma baxmayaraq, tarixin bizə dəfələrlə göstərdiyi kimi, hansı ölkələr olduğundan asılı olmayaraq, sülh heç bir zaman xaricdən yeridilə bilməz, çünki sülh münaqişədə olan hər iki tərəfin güzəştinin meyvəsidir və qlobal həllə doğru addımlamağa qərar vermiş tərəflərin bərabər və xoşniyyətli iradəsinə əsaslanır. Minlərlə kişinin, qadının və uşağın əzablarına son qoymaq yalnız tərəflərə aid olan qərardır.

***— Cəbhə xəttində vəziyyət gərgin olaraq qalır. Fransa tərəflər arasında gərginliyi azaltmaq üçün necə dəstək verə bilər?***

— Fransanın, Rusiya Federasiyasının və Birləşmiş Ştatların prezidentləri Los Kabos bəyanatında Azərbaycan və Ermənistan məsul şəxslərini Helsinki Yekun Aktının prinsiplərinə — konkret olaraq — güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək, ərazi bütövlüyü, hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyinetmə hüququna və 2009-cu il Akvill, 2010-cu il Muskoka və 2011-ci il Dovil bəyanatlarında qeyd edilmiş elementlərə riayət etməyə çağırdılar. Hərbi güc münaqişəni həll etməyəcək və yalnız region xalqlarının məruz qaldığı əzab və ağrını daha da uzadacaq.

***— Fransada erməni lobbisi çox güclüdür. Bu fakt Fransanın münaqişə həllində həmsədr ölkə kimi bitərəfliyinə təsir göstərmirmi?***

— Bəli, Fransada erməni mənşəli azlıq var və həmin azlıq Afrika kontinentindən, Aralıq dənizindən və ya Şərqi Avropadan gələn xalqlar kimi çox vaxt müharibələrin, yaxud böyük böhranların dağıtdığı ölkələrini tərk edərək ölkəmizdə sığınacaq tapıb. Bu azlıqlar çox vaxt ölkəmizin iqtisadi, siyasi və ictimai həyatında fəal rol oynayırlar. Bu fakt respublika inteqrasiyasının nəticəsidir və bunun belə olmasını 300 il əvvəl imtiyazların yox edilməsi, əvəzində isə azadlıq, bərabərlik və qardaşlıq prinsiplərinin qələbə çalması üçün mübarizə aparmış insanlar istəyiblər.

Digər tərəfdən, Azərbaycanın Fransada daha çox tanınması və eşidilməsi üçün göstərdiyi səyləri də inkar etmək olmaz. Ölkələrimiz və cəmiyyətlərimiz bütün sahələrdə — siyasi, iqtisadi, mədəni sahələrdə möhkəm əsaslarda tarazlaşdırılmış və yüksələn münasibətlər qururlar. Bu da nəhayət, o deməkdir ki, Azərbaycan Fransada getdikcə daha çox və daha yaxşı tanınır.

# Bakıda Azərbaycan və Tacikistan prezidentlərinin görüşü oldu

***(Əvvəli 1-ci səh.)***

Daha sonra digər sənədlərin imzalanması olub. “Bakı Dövlət Universiteti və Tacikistan Milli Universiteti arasında əməkdaşlıq haqqında Müqavilə”ni Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov və Tacikistan Respublikasının təhsil naziri Nuriddin Saidov, “Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Tacikistan Respublikası Milli Olimpiya Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum”u Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Tacikistanın Gənclər, İdman və Turizm Komitəsinin sədri Malikşo Nematov, “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Tacikistan Respublikası Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Abasov və Tacikistan Respublikasının kənd təsərrüfatı naziri Kosim Kosimov, “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Tacikistan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol”u Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Tacikistan Respublikasının xarici işlər naziri Xamroxon Zarifi, “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov və Tacikistan Respublikasının mədəniyyət naziri Mirzoşoxrux Asrori, “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov və Tacikistan Respublikasının Gənclər, İdman və Turizm Komitəsinin sədri Malikşo Nematov, “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sənədlərinin, elmi dərəcələrin və elmi adların qarşılıqlı tanınması və ekvivalentliyi haqqında Saziş”i Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov və Tacikistan Respublikasının təhsil naziri Nuriddin Saidov, “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında 2013-2015-ci illər üçün iqtisadi əməkdaşlıq üzrə Proqram”ı isə Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri, hökumətlərarası komissiyanın həmsədri Şahin Mustafayev və Tacikistan Respublikasının xarici işlər naziri Xamroxon Zarifi imzalayıblar.

# Almaniyadakı qüvvələrin Azərbaycana münasibətində “Qazprom” izi

Son zamanlar Almaniyanın bəzi mətbu orqanlarının, eləcə də bir çox qüvvələrnin, ayrı-ayrı fondlarının Azərbaycana qarşı qarayaxma kampaniyası aparması hər kəsə bəllidir. Antiazərbaycan qüvvələri tərəfindən idarə olunan bu kampaniya müxtəlif üsullarla həyata keçirilir və burada ən müxtəlif maraqların olması danılmazdır.

İstər Almaniya Bundestaqının üzvü, AŞ PA-nın Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Kristof Ştrasser, istər Almaniya hökumətinin İnsan haqları və humanitar yardım üzrə müvəkkili Markus Löninqin, istərsə də digər qüvvələrin ölkəmizə qarşı atdığı addımların kökündə şəxsi və ya digər maraqlar dayanır. Sözügedən ölkədə Azərbaycana qarşı dayanmış qüvvələr birbaşa olaraq ermənilərlə isti münasibətdədirlər. Əgər bu şəxslər Azərbaycana ilk olaraq insan hüquqları sahəsindəki vəziyyəti bəhanə gətirərək təzyiq edirdilərsə, indi artıq onlar başqa yollara əl atırlar.

Bir məsələ aydın şəkildə görünür ki, bu qüvvələri Azərbaycandakı demokratik, insan hüquqlarının vəziyyəti maraqlandırmır, onları yalnız və yalnız ölkəmizi nüfuzdan salmaq maraqlandırır.

Hətta bu ölkədə Dağlıq Qarabağla bağlı məsələlər təhrif edilir. Və orada erməni işğalı nəticəsində minlərlə insanın pozulan hüququna göz yumulur.

Bütün bu əks təbliğat məhz Azərbaycanın uğurlarının qısqanclıqla qarşılanması ilə bağlıdır. Bu şəxslərin qısqanclıqla qarşıladığı ən mühüm məqamlarından biri Azərbaycanın enerji təhlükəsizliyini təmin etmək istiqamətində atdığı mühüm addımlardır. Azərbaycanla Türkiyə arasında imzalanan Trans-Anadolu (TANAP) qaz kəməri layihəsi bu qüvvələri daha da qıcıqlandırıb. Onlar iki türk ölkəsinin öz vəsaitləri hesabına bir layihə həyata keçirməsini və bunun gələcək uğurlarından çox narahatdırlar.

Hətta Azərbaycan və Türkiyə arasında bu günlərdə bağlanmış “TANAP” layihəsi “Qazprom” şirkətini də ciddi narahat edib. “Qazprom” sözügedən müqavilədən dolayı Türkiyəyə xəbərdarlıq siqnalı da ünvanlayıb. “TANAP”ın Avropaya qaz ixracında monopoliyaya malik Moskvaya rəqib olaraq ortaya çıxması Rusiya üçün xoşagələn deyil. Rusiya ilə Azərbaycanın münasibətləri yüksək səviyyədə olduğu üçün “Qazprom”-un bu məqama narazılığını K.Ştrasser tərəfindən etiraz bildirdiyi qeyd edilir. Məlumata görə, “Qazprom” şirkəti hətta bu fədakarlığına görə Ştressərə vəzifə də təklif edib.

Almaniya hökumətinin İnsan haqları və humanitar yardım üzrə müvəkkili Markus Löninqinin Azərbaycana qarşı qərəzli mövqedə dayanmasının göz qabağında olduğunu bildirən millət vəkili Aydın Mirzəzadə onun bu əməllərin konkret olaraq nədən qaynaqlandığının qeyri-müəyyən olduğunu deyib. Onun sözlərinə görə, müvəkkil səlahiyyət hədlərini aşır: “Hesab edirəm ki, Löninq səlahiyyətini aşır. Vəzifəsinə aid olmayan məsələlərlə məşğul olur. Almaniyanın insan haqları üzrə müvəkkili olduğu halda tamamilə başqa bir ölkənin daxili işinə qarışır. Nəinki insan hüquqları, daxili siyasi həyatı ilə bağlı da yolverilməz bəyanatlar verir. Fikrimcə, Löninq başqa bir ölkənin daxili işinə qarışmağın qeyri-mümkünlüyünü bilməli idi. Digər tərəfdən Azərbaycan demokratik bir ölkədir, onun öz Ombudsmanı, öz vətəndaş cəmiyyəti var. Azərbaycan öz daxili işlərini digər ölkənin rəsmisinin məsləhəti olmadan da həll edə bilər”.

A.Mirzəzadə Ştrasserin Azərbaycana qərəzli mövqedə dayanmasının həmin vəzifəyə təyinatı zamanı hiss edildiyini deyib. Onun sözlərinə görə, Ştrasser Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi təyin edildikdən sonra əməkdaşlıqdan imtina edirdi. Millət vəkili Ştrasserin Azərbaycanla bağlı buradakı vəziyyətlə tanış olmadan belə qərəzli bəyanatlar verdiyini qeyd edib: “O, Azərbaycanla hər hansı bir əməkdaşlıqdan imtina edirdi. Hətta heç bir yoxlama keçirmədən, məruzə hazırlamadan, Azərbaycanda insan hüquqları barədə qərəzli məlumatlar verir, hətta ölkəmizə qarşı ittihamlar səsləndirirdi. Ştrasser ancaq öz baxışlarına uyğun gələn və Azərbaycanda müəyyən siyasi qüvvələrin verdiyi fikirlərə söykənməyə çalışır. Şübhəsiz ki, onun fəaliyyətə başlamadan Azərbaycana qarşı belə fikirlər bildirməsi cəmiyyətimizdə əlbəttə ki, narazılıq doğurmalı idi. Azərbaycan hökuməti bildirmişdi ki, siyasi məhbus məsələsində Avropa Şurası ilə müzakirələr aparmaq fikrindədir, lakin Ştrasser bu fikirdən imtina edərək bir səs çoxluğu ilə bu məsələnin komitədə müzakirəsinə dəstək qazandı. Adətən beynəlxalq təşkilatlarda hansısa məsələdə müəyyən fikir narazılığı varsa, bununla bağlı müzakirələr aparılır. Amma biz bunu Ştrasserdə görmürük. O, istənilən halda Azərbaycanı neqativ obrazda canlandırmağa çalışır”.

Millət vəkili bu şəxslərin, belə qüvvələrin Azərbaycana qarşı aşkar şəkildə müşahidə edilən qərəzinin nədən qaynaqlandığını söyləməyin çətin olduğunu deyib: “Həqiqətən də onların hansı səbəbdən Azərbaycana qarşı belə mənfi mövqedə dayanmasını söyləmək heç də asan deyil. Burada maddi və ya siyasi marağın olması da düşündürücüdür. Və ya hansısa tapşırıqlarmı yerinə yetirilir. Ortada fakt olmadığı üçün nəsə demək bir qədər çətindir. Ancaq onların Azərbaycana qarşı mövqeyində qərəzin olması danılmazdır. Hesab edirəm ki, onların stili ölkəmizdə hər hansı bir inkişafı və burada vətəndaş cəmiyyətinin, demokratiyanın inkişafını görməməkdir”.

**Aqil LƏTİFOV**

# Nəsimi rayonunun sosial–iqtisadi inkişafı: real vəziyyət və perspektivlər

Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü və çoxşaxəli siyasət nəticəsində ölkə həyatının bütün sferalarında iqtisadi-sosial tərəqqi yüksələn xətlə inkişaf edir. Ölkə başçısının imzaladığı “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, rifahına xidmət edir. Sözügedən dövlət proqramı çərçivəsində həm paytaxtda, həm də regionlarda sürətli və keyfiyyətli quruculuq, abadlıq, təmir və yenidənqurma işləri həyata keçirilir. İnsanların firavan həyatının təmini ilə yanaşı, onların istirahətinin təşkili ilə bağlı idman meydançalarının və stadionların, park və xiyabanların salınması, şəhər və qəsəbələrin daha da gözəlləşməsi üçün təmir, quruculuq, abadlıq işlərinin görülməsi aparılan siyasətin tərkib hissəsidir. Təkcə rifahın təmini şərt deyil, insanlar həmişə gözəl ortamda, təmirli şəraitdə yaşamaq, yaşıl parklarda istirahət etməyi arzulayırlar. Hər gün işdən evə, evdən işə tələsən insanlar mədəniyyət göstərgisi olan gözoxşayan, rahat və təmirli yollarla getməyi istəyirlər. Öz insanlarına dəyər verən hökumətlər həmişə insanlarının bu təbii arzularını nəzərə alırlar. Şəhərin mərkəzi rayonlarından biri kimi Nəsimi icra hakimiyyəti də vətəndaşlarının bu arzu və tələbatlarını önə çəkərək abadlıq, quruculuq, yenidənqurma, yaşıllaşdırma və təmir işlərinə böyük diqqət yetirir.

Bakı şəhərinin mərkəzi rayonlarından biri olan Nəsimi 1969-cu ildə yaradılıb. Xətai, Nərimanov, Binəqədi, Yasamal və Səbail rayonları ilə həmsərhəd Nəsiminin ərazisində Bakının digər rayonlarından fərqli olaraq qəsəbə, kənd və digər inzibati ərazi dairələri mövcud deyil.

Rayon ərazisində 27 iri sənaye müəssisəsi, 4 elmi tədqiqat və layihə institutu, 18 bank və onların filialları, 9 rabitə müəssisəsi, 12 mehmanxana fəaliyyət göstərir. Rayon ərazisində 8 ali məktəb (Azərbaycan Neft Akademiyası, Musiqi Akademiyası, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Slavyan Universiteti, Bakı Asiya Universiteti, Azərbaycan Universiteti, Bakı Qızlar Universiteti), 33 orta məktəb, 4 orta ixtisas və peşə məktəbi, 8 məktəbdənkənar tərbiyə müəssisəsi, 2 musiqi məktəbi, 47 körpələr evi-uşaq bağçası, 11 xəstəxana, 11 poliklinika, 13 memarlıq abidəsi yer alıb.

Əhalinin istirahəti və asudə vaxtının səmərəli keçirilməsi məqsədi ilə rayonda 12 istirahət parkı, 1 mədəniyyət evi, 5 kinoteatr, 6 kitabxana (kitab fondu — 632900) fəaliyyət göstərir. Bütün bunlardan əlavə Heydər Əliyev Sarayı, Heydər Əliyev adına İdman Konsert Kompleksi, Bakı Dəmir Yolu Vağzalı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, 28 May, C. Cabbarlı, 20 Yanvar və Memar Əcəmi metro stansiyaları Nəsimi rayonunun ərazisində yerləşir. Nəsimi rayonunun ərazisində Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdən 2457 ailə ( 10778 nəfər) müvəqqəti məskunlaşıb. Rayonda 152 şəhid (138 nəfər Qarabağ müharibəsi şəhidi, 14 nəfər 20 Yanvar şəhidi) ailəsi var.

Nəsimi icra hakimiyyətindən verilən məlumata görə , ötən il rayonda geniş miqyaslı abadlıq, yenidənqurma və yaşıllaşdırma işləri aparılıb. Belə ki, H. Seyidzadə, 20 Yanvar, Cavadxan, S.Vurğun küçələri, Vaqif, Azadlıq, Tbilisi prospektlərində, rayonun mikrorayon ərazisindəki məhəllələrdə, mövcud park və bağlarda ümumilikdə 10000 —ə yaxın ağac və gül kolları əkilib, rayon ərazisində yeni-yeni yaşıllıq zolaqları salınıb. Rayon icra hakimiyyəti tərəfindən 20 həyət müəyyənləşdirilərək həmin həyətlərdə təmir-abadlıq və yenidənqurma işləri görülüb, S. Vurğun, R. Behbudov, Bakıxanov, H. Ələsgərov, Mərdanov Qardaşları küçələrində, Vaqif və Azadlıq prospektlərində səkilərə tamet plitələr döşənməsi işləri davam etdirilərək ayrı-ayrı ünvanlarda bardürlər dəyişdirilib, yol kənarlarında ağaclar və dekorativ kollar əkilib. D. Əliyeva küçəsi 241, Cavadxan küçəsi 28 və A.Əliyev küçəsi 9 ünvanlarında abadlıq və quruculuq işləri aparılaraq məhəllədaxili yolların və meydançaların asfalt örtüyü dəyişdirilib, həmin ünvanlarda yeni oturacaqlar qoyulub, uşaq oyun elementləri quraşdırılıb və yaşıllıq zolaqları salınıb.

“Zabitlər” və Bülbül prospektindəki parklarda aparılan yenidənqurma və abadlıq işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Görülən işlərin nəticəsində hər iki parkda sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Bülbül prospektində yerləşən parkların birində istirahət edən yaşlı insanlarla söhbətimizdə onlar aparılan işlərdən razılıqlarını ifadə ediblər. Təqaüdçü Roza Xəlilova hər gün nəvələrini parka gəzməyə çıxartdığını, burada səmərəli istirahət üçün yaxşı şərait yaradıldığını bizimlə söhbətində vurğulayıb.

Məlumat üçün qeyd edək ki, rayon ərazisində həmçinin Dağ Yəhudiləri dini icması üçün yeni sinaqoqun tikintisi başa çatdırılaraq istifadəyə verilib, “Əjdərbəy” məscidinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub.

İcra Hakimiyyətindən bildiriblər ki, ötən il rayonda aparılan təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmaq, başa çatdırılmış tikintilərin açılış mərasimlərində iştirak etmək üçün Prezidenti İlham Əliyev 9 dəfə rayonda olub.

Hal-hazırda rayonda görülən işlər sırasına 2-ci mikrorayonda yerləşən “Heydər Parkı”nda, Cavadxan küçəsində (“Moskva” ticarət mərkəzinin qarşısındakı ərazidə) abadlıq və yenidənqurma işləri və Bakıxanov küçəsindəki və Koroğlu abidəsi qoyulmuş parklarda son tamamlanma işləri də daxildir. Heydər Əliyev Sarayının ətrafında “Qış parkı” nın salınması ilə əlaqədar ötən ildən başlanılmış söküntü işlərinə yaxından köməklik göstərilib, Y.Səfərov və Ə.Quliyev küçələrinin kəsişməsində yeni parkın salınması məqsədilə əhalinin köçürülməsi və digər hazırlıq işləri başa çatdırılıb.

Ötən il həmçinin Azərbaycan Dövlət Neft Akademiyasının əsas binasına ulu öndər Heydər Əliyevin barelyefi vurularaq ətraf ərazidə abadlıq və yenidənqurma işləri aparılıb. İl ərzində rayonun 15 ünvanına bütövlükdə 140045 kvadrat metr asfalt vurulub.

Azərbaycan prezidentinin sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan kinosunun 2008-2018 —ci illər üzrə inkişafına dair Dövlət Proqramı” çərçivəsində “Nizami” kinoteatırının binası əsaslı təmir və yenidənqurmadan sonra prezidentin və xanımı Mehriban Əliyevanın iştirakı ilə açılaraq kinoteatr tamaşaçılar üçün yüksək rahatlığın təmin olunduğu mədəniyyət ocağına çevrilib. İcra hakimiyyətindən məlumat verilib ki, ötən ildə rayon ərazisində yerləşən ölkə və yerli əhəmiyyətli tarixi və memarlıq abidələri, bağ-park, monumental və xatirə abidələrinin qorunması və təbliğini diqqət mərkəzində saxlayıblar.

Ötən il rayon icra hakimiyyəti tərəfindən həyata keçirilən adıçəkilən əhəmiyyətli işlər bu il də davam etdirilir. İcra hakimiyyətindən bildirilib ki, bu ilin ilk üç ayı ərzində ölkə rəhbəri İlham Əliyevin 2012-ci ili “İdman ili” elan etməsilə bağlı rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı hazırlanaraq tədbirlər planı təsdiq edilib və həmin tədbirlər planının icrasına başlanıb. Belə ki, 4-cü mikrorayon 20 Yanvar küçəsi 21b saylı binanın qarşısında müasir tələblərə cavab verən yeni idman meydançası tikilib. Hal-hazırda tamamlanma işləri aparılır və ətrafında yeni park salınır.

Prezident İlham Əliyev respublikanın hər yerində, o cümlədən Nəsimi rayonunda abadlıq və yenidənqurma işlərinin aparılmasını yüksək qiymətləndirərək eyni zamanda bu işlərin planlı şəkildə və yüksək zövqlə aparılmasının vacibliyini qeyd edib. Hazırda ölkənin hər yerində olduğu kimi Nəsimi rayonunda da böyük abadlıq, quruculuq işləri davam etdirilir. Belə ki, cari ilin 3 ayı ərzində Nəsimi rayon icra hakimiyyəti tərəfindən Cavadxan küçəsində yeni park salınır, Hüseynbala Əliyev küçəsi ilə Rəşid Məmmədov küçələrinin kəsişməsində yerləşən “Heydər parkı”nda əsaslı təmir işləri aparılır. Nəsimi rayon icra hakimiyyətinin yeni inzibati binasında aparılan tikinti işləri tamamlanmaq üzrədir. Binanın ətrafında yerləşən parkda əsaslı təmir işləri aparılıb, parkda aparılan əsaslı təmir işləri zamanı “1941-1945” adlı abidə həmin ünvandan götürülərək Zorge bağının Vaqif pr. ilə Topçubaşov küçəsinin kəsişməsində olan hissəsinə köçürülüb. Vaqif pr. 3,5, Azadlıq pr. 89a, 91, 97, Nizami küçəsi 118, Süleyman Rüstəm küçəsi 55 binaların fasadlarında təmir, Nizami küçəsində əsaslı təmir və genişləndirmə, Sərəfəliyeva, Zorge və Xəqani küçələrində əsaslı təmir işləri, Ceyhun Səlimov, Salamzadə, Çəmənzəminli küçələrində təmir işləri aparılıb.

İcra hakimiyyətinin məlumatına görə, son həftə ərzində Ə.Qasımzadə, C. Məmmədquluzadə küçələrində əsaslı təmir işləri aparılır, bardürlər dəyişdirilir. Eləcə də 4-cü mikrorayon dairəsində asfalt örtüyü təmir edilir.

İcra hakimiyyətinin sosial-iqtisadi məsələlər şöbəsinin müdiri Elçin Abdullayev prezidentin “Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı (2011-2013-cü illər) “nın icrası ilə əlaqədar Nəsimi rayonunda görülən işlərin rayon icra hakimiyyəti tərəfindən daim nəzarətdə saxlandığını və bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

**Sevinc MÜRVƏTQIZI**

**Yazı Nəsimi rayon icra hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# Mətbuat Şurasında “Açıq cəmiyyət və mətbuat” kitabının təqdimatı olub









Dünən Azərbaycan Mətbuat Şurasında tanınmış publisist, filologiya üzrə fəlsəfə doktoru, “Təfəkkür” Universitetinin jurnalistika kafedrasının professoru Tofiq Yusifovun “Açıq cəmiyyət və mətbuat” kitabının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov bildirib ki, kitabda başlıca olaraq açıq cəmiyyət anlayışının mahiyyəti, onun yaranma tarixi, bir formasiya olmaq etibarı ilə formalaşması və mətbuatın müasir mərhələdə bu prosesə fəal təsirindən bəhs edilir. Hazırkı dövrdə məhz jurnalistika sahəsindəki nümunələrin azlığından danışan Ə.Amaşov nəşri dəyərli elmi vəsait kimi də xarakterizə edib.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli çıxışında əsasən müəllifin fərdi keyfiyyətləri üzərində dayanaraq bunun yaradıcılıqla çulğalaşmasının gözəl sənət nümunəsinin formalaşmasına səbəb olduğunu vurğulayıb.

Cəmiyyətin özünü ifadə etmək imkanlarının çoxalacağı təqdirdə belə kitabların daha çox ərsəyə gələcəyini vurğulayan BDU-nun dekanı, professor Şamil Vəliyev nəşri təkcə mətbuat deyil, ümumilikdə ictimai-siyasi fikir, mədəniyyət tarixi barədə ortaya qoyulmuş peşəkarlıq nümunəsi kimi dəyərləndirib.

MŞ İdarə Heyətinin üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə mətbuat günü ərəfəsində belə bir nəşrin işıq üzü görməsini jurnalistikamız üçün böyük bayram hədiyyəsi adlandırıb. O, müəllifin “Açıq cəmiyyət və mətbuat” kitabı ilə bütövlükdə Azərbaycan jurnalistikasının inkişafı ilə bağlı fundamental baxış ortaya qoyduğunu vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, “Paralel” qəzetinin baş redaktoru Tapdıq Abbas bildirib ki, təqdimatı keçirilən nəşrin ən mühüm xüsusiyyətlərindən biri orada Azərbaycanda açıq cəmiyyətin formalaşması prosesində mətbuatın həlledici rolunun qabardılması, bu missiyanın dolğun misallarla sübuta yetirilməsidir.

Çıxış edənlərdən “Assa İrada” İnformasiya Agentliyinin və “Azərnyus” qəzetinin rəhbəri Fazil Abbasov, veteran jurnalistlər Məzahir Süleymanzadə, Altay Zahidov, həmçinin “Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, “Addım” qəzetinin baş redaktoru Anar Vəziroğlu və başqaları təqdimatı keçirilən nəşrdə Azərbaycan cəmiyyətinin totalitar rejimdən milli dövlətçilik quruculuğuna keçid dövründə medianın demokratiya və söz azadlığı, plüralizm və şəffaflıq, azadfikirlilik və insan haqlarının müdafiəsi sahəsində nəhəng fəaliyyət prinsiplərinin, təbliğatçılıq və təşviqatçılıq funksiyasının konkret fakt və misallar əsasında xronoloji araşdırılmasını müəllifin zəhmətsevərliyinin, peşəsinə hədsiz bağlılığının məhsulu kimi dəyərləndiriblər.

Sonda çıxış edən “Açıq cəmiyyət və mətbuat” kitabının müəllifi Tofiq Yusifov toplantı iştirakçılarına, nəşrin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Qeyd edək ki, “Apostrof” Çap Evi tərəfindən kütləvi tirajla buraxılmış 220 səhifəlik “Açıq cəmiyyət və mətbuat” kitabı KİV-in praktik jurnalistləri, eləcə də publisistikanın nəzəriyyəsi və təcrübəsi problemlərini araşdıran pedaqoqlar üçün nəzərdə tutulub.

Kitabda mətbuatın ölkədə gedən quruculuq proseslərinə təsiri, cəmiyyətin bu quruculuq səylərini dərindən qavraması və dəstəkləməsi, cəmiyyətlə dövlət arasında münasibətlərin sivil qaydada tənzimlənməsində onun yeri və rolu elmi və praktik şəkildə əsaslandırılıb. Müəyyən edilib ki, açıq cəmiyyətin yaranması və ideyalarının bütün dünyada rezonans doğurması, demokratik cəmiyyətlərin inkişafının ayrılmaz hissəsinə çevrilməsi ötən əsrdə reallaşsa da, bu proses KİV-in ictimai həyata fəal müdaxiləsi və onun rolunun, nüfuzunun getdikcə artması nəticəsində son 20 ildə daha populyar, qaçılmaz və aktual olub. Araşdırma dünya ölkələri mətbuatının açıq cəmiyyətin formalaşması istiqamətində fəaliyyət prinsiplərinin əsas məqamlarının öyrənilməsindən və Azərbaycan mətbuatının 1991-2004-cü illərdə sözügedən sahədə uğur və çətinliklərindən bəhs edir. Nəşrdə həmçinin ölkəmizin Avropaya, Qərbə inteqrasiya ilə bağlı strateji siyasəti kontekstindən demokratik, sivil dəyərlərin mətbuatda təbliği və KİV vasitəsi ilə toplumun açıq cəmiyyətin əsas prinsiplərindən olan debatlar sisteminə, aşkarlıq, şəffaflıq, xalqla hakimiyyətin dialoqu, fərdlərin və ayrı-ayrı ictimai qrupların dövlətin idarə olunması prosesində iştirakı və s. məsələlərə hazırlanmasına aydınlıq gətirilib.




Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Ramin Musayev: "Kim deyir ki, çempionatda fasilə yaranacaq?"

**İyulun 14-də futbol üzrə Azərbaycan Premyer Liqasının püşkatma mərasimi keçiriləcək. Peşəkar Futbol Liqasının (PFL) prezidenti Ramin Musayev püşkatma ərəfəsində Qol.Az-ın suallarını cavablandırıb.**

***— Artıq növbəti mövsümün püşkatma mərasiminin vaxtı da bəlli oldu. Ancaq cavabı açıq qalan bir sıra məsələlər var. Hazırda klublarımız avrokuboklarda uğurla çıxış edirlər. Bu gedişat davam edərsə, onların ilk turdakı oyunları təxirə salına bilər?***

— Növbəti mövsüm üçün qrafiki elə qurmuşuq ki, hər hansı problemimiz olmamalıdır. Bütün məqamları nəzərə almağa çalışmışıq. Ancaq hər hansı bir komandamız uğurlu çıxışını davam etdirərsə və bir neçə mərhələ adlayarsa, o zaman biz də onlara lazım olan dəstəyi göstərəcəyik. Bu, bizim borcumuzdur.

***— Bəlkə, bütün klublarımız ikinci, üçüncü mərhələni də adladı, onda necə olacaq?***

— Kimin güzəştə, dəstəyə daha çox ehtiyacı olsa, ona kömək ediləcək.

***— Sentyabrda ölkəmizdə qızlar arasında dünya çempionatı keçiriləcək. Eşitdiyimizə görə, bununla əlaqədar, Premyer Liqada uzunmüddətli fasilə yaranacaq. Bu məsələ sonradan qrafik sıxlığı baxımından sizə problem yaratmayacaq?***

— Kim deyir ki, fasilə yaranacaq?

***— Belə bir şey eşitmişik və istədik sizinlə dəqiqləşdirək.***

— Səbəb nədir?

***— Bütün stadionlarda oyunlar keçiriləcək və boş arena olmayacaq.***

— Xeyr, istənilən halda Premyer Liqada dünya çempionatı zamanı da davam edəcək və heç bir fasilə olmayacaq.

***— Çempionatın yayım məsələsi nə yerdə qaldı?***

— Hələ ki, konkret bir şey yoxdur. Bu hüquq PFL-ə verilib və bizdə tender vasitəsilə bu hüququ telekanallara satmaq istəyirik. Ancaq bu günə kimi yalnız 2 telekanal — “Xəzər” TV və “İdman Azərbaycan” bizə müraciət edib. Hazırda “İdman Azərbaycan”la danışıqlar getsə də, müsbət razılıq əldə olunmayıb.

***— Əgər razılıq əldə olunsa və yayım hüququ “İdman Azərbaycan”a verilsə, digər telekanalların oyunlardan çəkiliş aparması yenə qadağan ediləcək?***

— Biz hüququ hansısa telekanala verəcəyik, qalan şərtləri onlar özləri müəyyən edəcək.

***— Telekanallar PFL-in yayım üçün kifayət qədər böyük məbləğ tələb etdiyindən narazıdır və buna görə heç kim bu işə girişmək istəmir. Əgər heç bir telekanal sizin tələb etdiyi məbləği ödəməsə, necə olacaq?***

— O zaman oyunlar PFL-in rəsmi saytı vasitəsilə yayımlanacaq.

***— Premyer Liqanın sponsoru “Unibank”la müqavilə başa çatıb. Danışıqlar nə yerdədir?***

— Danışıqlar davam edir və onlar özləri də bizimlə əməkdaşlıqda maraqlıdılar. Hələ ki, rəsmi razılaşma olmasa da, inanıram ki, əməkdaşlığımızı davam etdirə biləcəyik.

***— Bəs, ölkə kubokuna yeni sponsor tapılmayıb ki?***

— Xeyr, bu məsələdə heç bir yenilik yoxdur.



***— PFL-ə yenidən prezident seçildikdən sonra keçirdiyiniz ilk mətbuat konfransında ikinci “altılıq”la bağlı da yenilik olacağını demişdiniz. Hər hansı bir yeni təklifiniz var?***

— Bildiyiniz kimi, bir təklif irəli sürmüşdüm. Söhbət 7-ci pillənin sahibi ilə 4-cü pillənin sahibi arasında pley-off oyunlarının keçirilməsi idi. Ancaq sonradan dedilər ki, bu düzgün olmazdı, kiminsə haqqı tapdalanacaqdı və təklif qüvvədən düşdü. İndi yeni variantlar haqqında düşünürük. Bir şey alınmasa, 7-ci pillənin sahibinə pul mükafatı ayrılacaq. Başqa neyləyə bilərəm?

**Anar XANLAROV**

## Burak Yılmaz rəsmən "Qalatasaray"da

Son Türkiyə çempionu “Qalatasaray” klubu növbəti transferini gerçəkləşdirib.

“NTVspor”un verdiyi məlumata görə, “Cim Bom” “Trabzonspor” klubunun hücumçusu Burak Yılmazı 5 milyon avro qarşılığında heyətinə qatıb.

Son günlər Moskvanın “Lokomotiv” klubuna keçəcəyi söylənilən Burak gözlənilmədən “Qalatasaray”la müqavilə imzalayıb. Lakin Yılmazın neçə illik müqavilə bağladığı açıqlanmayıb.

Qeyd edək ki, bu günlərdə “Lokomotiv” klubu ilə danışıqlar aparan Burakın maliyyə məsələsində razılığa gələ bilmədiyi söylənilir.

## Dik Advokat Rusiya yığmasından 300 min avro tələb edir

Futbol üzrə Rusiya milli komandasının sabiq baş məşqçisi Dik Advokat iyul ayının əmək haqqını tələb edir.

“İTAR-TASS”ın verdiyi məlumata görə, niderlandlı mütəxəssis Rusiya Futbol İttifaqından 300 min avro istəyir.

Advokat 2012-ci il Avropa çempionatında şimal qonşularımızın qrup mərhələsindəcə çıxışlarını başa vurmasından dərhal sonra postunu tərk edib. O, karyerasını Niderland PSV-sində davam etdirməyə qərar verib. Qeyd edək ki, Rusiya yığmasının sükanı arxasına keçməyə 13 namizəd açıqlanıb. Onların arasında İngiltərə millisinin və İspaniya “Barselona”sının sabiq baş məşqçiləri Fabio Kapello ilə Xosep Qvardiola da var.

## Üç il həbsdə olan futbolçu azadlığa buraxıldı

Üç il İsrail həbsxanasında saxlanılan Fələstin milli komandasının futbolçusu Mahmut Əl-Sarsak azadlığa buraxılıb. Beynəlxalq futbol ictimaiyyətinin və FİFA-nın təzyiqi ilə azadlığa buraxılan Əl-Sarsak Fələstinin ən böyük şəhəri Qəzzədə böyük sevinclə qarşılanıb.

Qeyd edək ki, 25 yaşlı futbolçu İslam Cihad qruplaşması ilə sıx əlaqə yaratmaqda günahlandırılırdı.

# Böyükağa Hacıyev: “Neftçi” “Zestafoni”ni bütün göstəricilərdə üstələyir”

**“Neftçi” klubunun baş məşqçisi Böyükağa Hacıyevin Qol.Az saytına müsahibəsi**

***— Avstriyada keçirdiyiniz təlim-məşq toplantısından razı qaldınız?***

— Bəli. Hazırlıq prosesinin normal keçdiyini deyə bilərəm. Bizim üçün lazımı olan bir neçə yoldaşlıq görüşü keçirdik. Bu da komanda üçün çox xeyirli oldu. Artıq geri, vətənə dönmüşük və iyulun 17-dəki vacib qarşılaşmaya hazırlaşırıq.

***— Komandaya cəlb etdiyiniz yeni transferlər haqda nə deyə bilərsiniz?***

— Mən səhərdən axşamacan onları tərifləyə bilmərəm. İnşallah, bu futbolçuların oyununu meydanda görəcəyik. Düşünürəm ki, bu futbolçular “Neftçi”də yüksək səviyyədə çıxış edəcəklər.

***— “Neftçi”dən ayrılan bir çox əsas heyət üzvünün yerlərinin tam şəkildə doldurulmaması çıxışınıza nə kimi təsir göstərəcək?***

— Mən deməzdim ki, onların gedişindən sonra komanda zəifləyib. Xeyr, belə deyil. Düzdür, “Neftçi”ni tərk edən futbolçular bizim üçün çox dəyərli idi. Lakin hazırda bizdə onları layiqincə əvəzləyə biləcək futbolçular var.

***— Sizcə, “Neftçi”nin yeni transferlərə hələ də ehtiyacı varmı və hansı mövqelərə?***

— Əgər Çempionlar Liqasında ilkin mərhələni keçsək, yeni transferlər olacaq. Hazırda bizə əlavə hücumçu lazımdır. Düzdür, komandanın bütün xətlərinə oyunçu tələb olunur. Lakin əsas məqsədimiz hücumu gücləndirməkdir. Uğur qazanmaq istəyən komandanın birinci növbədə hücumu güclü olmalıdır.

***— “Zestafoni” klubu haqda nə deyə bilərsiniz?***

— Gürcüstan təmsilçisi çox yaxşı komandadır. Ancaq “Neftçi” ondan da güclüdür. Biz rəqibimizi bütün göstəricilərdə üstələyirik.

***— “Zestafoni”ylə birinci qarşılaşmanın evdə olmasını “Neftçi” üçün üstünlük saymaq olar, yoxsa?***

— Biz bütün variantları fikirləşmişik. Çalışacağıq ki, birinc oyunda daha çox qol vuraq ki, səfərə yaxşı nəticəylə yollanaq.

***— Rəqibinizin daha çox hansı keyfiyyətlərindən çəkinirsiniz?***

— Onu deyə bilərəm ki, “Zestafoni” çox təcrübəli və futbol oynamağı bacaran komandadır.

***— Ümumiyyətlə, klub rəhbərliyi Çempionlar Liqası turnirində qarşınıza hansı vəzifəni qoyub?***

— Siz bilirsiniz ki, “Neftçi”nin prezidenti Sadıq Sadıqovun yeganə bir məqsədi var: bacardıqca irəli getmək.



***— Real danışsaq, “Neftçi”nin “Zestafoni” səddini keçmək şansları nə dərəcədədir?***

— Üstünlük bizim tərəfimizdədir. Çünki “Neftçi” mərhələ adlamaq və nəticə qazanmaq üçün daha istəklidir.

**Əli HƏYATİ**

## Elan

Xətai Rayon Polis İdarəsi tərəfindən 05.09.2008-ci il tarixində Həsənov Elmir Əlimərdan oğluna verilmiş şəxsiyyət vəsiqəsi (AZE № 06599024) itdiyi üçün etibarsız sayılır.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2374
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.